Azərbaycan Respublikasının
Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin
İnkişafına
Dövlət Dəstəyi Fondu

**5-ci istiqamət: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağda yeni məkrli erməni planı - xaricdən sadə erməni adı altında peşəkar döyüşçülər gətirilir...

**Ermənistanın zəbt edilmiş Azərbaycan ərazilərini terror məskəninə çevirməsi ilə bağlı rəsmi Bakı uzun müddətdir həyəcan təbili çalır. Amma dünyadan buna hələ də lazımi reaksiya yoxdur. Bu da, öz növbəsində, zəbt edilmiş torpaqlarda terrorizmin çiçəklənməsinə rəvac verir. Belə vəziyyət isə təkcə Azərbaycana yox, elə dünyanın, xüsusən də Avropanın özünə ciddi təhdid yaradır.**

**Ermənistan terrorizmə qucaq açmaqda davam edir**

Hadisələrin inkişaf axarı bu qənaətə gəlməyə əsas verir ki, erməni terrorunu dayandırmaq ancaq güc tətbiqi hesabına baş tutacaq. Əks halda Dağlıq Qarabağ və ətraf ərazilərdə terrorizm çiçəklənməkdə davam edəcək. Həmçinin bura xaricdən terrorçu axını davam edəcək. Yeri gəlmişkən xatırladaq ki, bu xüsusda Türkiyənin "Cümhuriyyet" qəzeti maraqlı məlumat yayıb. Qəzetin yazdığına görə, Livan ermənilərin ardınca PKK terror təşkilatının xüsusi təyinatlı qüvvələri də Qarabağa yerləşib. Qəzet onu da yazır ki, Ermənistan Azərbaycanın işğal edilmiş ərazilərində demoqrafik vəziyyəti dəyişdirmək yönündə fəaliyyətini davam etdirir. Paşinyan hökuməti Beyrutda baş vermiş partlayışdan sonra yüzdən çox livanlı ermənini Dağlıq Qarabağda və ətraf rayonlarda məskunlaşdırıb. Daha əvvəl isə Ermənistan suriyalı erməniləri Dağlıq Qarabağda yerləşdirmişdi: "Paşinyanın demoqrafik vəziyyəti dəyişdirməklə yanaşı, Dağlıq Qarabağda hərbi fəaliyyətləri də gücləndirib. Regiondakı təhlükəsizlik qaynaqlarından əldə edilən məlumatlara görə, PKK-nın dırnaqarası xüsusi təyinatlı qüvvələri Dağlıq Qarabağa göndərilib və orada ermənilərə hərbi təlim keçir. PKK Qarabağda yeni hücum dalğası başlatmağa hazırlaşır, bu arada 250-yə yaxın erməni əsgəri də Suriyada PYD-YPG terror təşkilatının sıralarına qatılmaq üçün göndərilib". Bildirilir ki, erməni əsgərlərlə PKK arasındakı bu işbirliyi Fransanın vasitəçiliyi ilə baş tutub. Erməni əsgərləri Fransanın müşahidəsi və vasitəçiliyi altında PKK ilə danışıqlar aparıb. İranın Azərbaycandakı keçmiş səfiri Əfşar Süleymani bu günlərdə bildirib ki, livanlı ermənilərin Qarabağa köçürülməsi işin görünən tərəfidir: "Keçmiş səfir son iki ayda İraq və Suriyadan yüzlərlə PKK terrorçusunun Dağlıq Qarabağa yerləşdirildiyini demişdi". Qeyd edək ki, PKK terror təşkilatının Azərbaycanın işğal altındakı ərazilərində, o cümlədən Kəlbəcərdə təlim düşərgələrinin olduğu barədə məlumatlar daha əvvəllər də yayılmışdı.

Hesab edilir ki, PKK-nın indiki halda Qarabağa axını təsadüf deyil. Belə ki, Türkiyə ordusu və hava qüvvələri son aylarda İraq və Suriya ərazisində gizlənən PKK-ya öldürücü zərbələr vurur. Buna görə də terrorçu təşkilat gizlənməyə yeni məkan axtarır. Bu məkanlardan biri kimi də işğal altındakı Azərbaycan əraziləri seçilməkdədir. Burada problem həm də ondadır ki, məlum köçdən Ermənistan hakimiyyəti də öz məqsədləri üçün istifadə edərək bölgədəki separatçıların gücünü artırmağa çalışır. Digər tərəfdən, PKK terrorçularının Azərbaycanın işğal altındakı ərazilərində yerləşməsi yeni durum yaradır. Söhbət Türkiyənin də iştirakı ilə Azərbaycanın zəbt edilmiş ərazilərdə antiterror əməliyyatlarına gözlənildiyindən daha tez başlamasından gedir. Burada ekspertlər ona diqqət yetirir ki, PKK-nın işğal altındakı torpaqlarda yerləşməsi və burada hərbi düşərgələr formalaşdırması gələcəkdə terrorçu təşkilatın Türkiyə ilə bərabər Azərbaycana qarşı da təxribatlarının baş verməsi ehtimalını artırır. Bu durum işğal altındakı torpaqların azad olunması məqsədilə Azərbaycanla Türkiyənin birgə hərbi əməliyyat keçirməsinə şərait yaradır. Yəni belə bir vəziyyətdə Azərbaycanın Türkiyə və digər dövlətlərin iştirakı ilə Qarabağda antiterror əməliyyatlarına başlaması ehtimalı böyükdür.

**Azərbaycan - Türkiyə qardaşlığı bölgədə təhlükəsizliyin təminatıdır**

Iki qardaş ölkənin Qarabağda antiterror əməliyyatını şərtləndirən daha bir məqam onların regionda artıq sabitliyin qarantına çevrilən güc mərkəzi yaratmasıdır. Bunu Türkiyənin xarici işlər nazirinin müavini Yavuz Səlim Qıran da xüsusi olaraq diqqətə çatdırır: "Türkiyə ilə Azərbaycan arasında güclü qardaşlıq münasibətləri var. Elə Prezident İlham Əliyevin Yunanıstan səfirini qəbul edərkən Türkiyənin mövqeyini dəstəkləməsi ölkələrimiz arasındakı qardaşlığın ən bariz nümunəsidir. Türkiyə hər zaman Azərbaycanın yanındadır, ölkələrimizin qardaşlığı bölgədə təhlükəsizliyin təminatıdır". Nazir müavini qeyd edib ki, Azərbaycan və Türkiyə terrorun bütün formalarına qarşı birgə mübarizə aparır: "Türkiyənin Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq hüquq çərçivəsində həlli üçün qətiyyətli dəstəyi davam etməkdədir. Ermənistan Azərbaycanın işğal olunmuş torpaqlarından dərhal çəkilməlidir".

Burada onu da nəzərə almaq lazımdır ki, zəbt edilmiş ərazilərə təkcə PKK terrorçuları yerləşdirilmir. Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərinə Livandan ermənilərin köçürülüməsi məsələsi araşdırılarkən məlum olur ki, Qarabağa ermənilərin iddia etdikləri kimi mülki əhali deyil, peşəkar muzdlu döyüşçülər və onların ailələri gətirilir. Özü də İrəvan bu prosesi davam etdirir. "Respublika Armeniya" saytının verdiyi məlumata görə, Livandan 20 min erməni ailəsinin gətirilməsi planlaşdırılır. Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı İctimai Birliyinin sədri Faiq İsmayılovun dediyinə görə, Livandan peşəkar muzdlu döyüşçülərin Qarabağa gətirilməsinə "Hayastan" Umumerməni fondu 312 milyon dollardan çox, Qarabağın erməni icması rəhbərliyi 51,3 min, erməni əsilli amerikalı pornoulduz Kim Kardaşyan isə 70 milyon dollar vəsait ayırıb: "Bu vəsaitlər hesabına Qarabağda məskunlaşdırılan ermənilər Azərbaycan ordusuna qarşı vuruşacaqlar".

Burada bir daha qeyd edək ki, Ermənistan Livandan gətirilən erməni ailələrin işğal altındakı Dağlıq Qarabağa göndərildiyini açıq şəkildə bəyan edib. ASALA erməni terror təşkilatının tarixən Livan ərazisində formalaşdığını nəzərə alsaq, xüsusi düşərgələrdə təlim keçmiş terrorçuların Azərbaycan ərazilərinə gəlməsi tamamilə təbii sayıla bilər.

**Savaş yeganə çözüm yoludur…**

Hazırda baş verənlər bir daha təsdiq edir ki, Ermənistanın qarşısı yalnız savaş yolu ilə alına bilər. Əks təqdirdə Dağlıq Qarabağ münaqişəsinin həllini uzadan bu ölkə bölgəyə daha çox terrorçu gətirəcək. Bunu rusiyalı hərbi ekspert İqor Korotçenko da xüsusi olaraq qeyd edir: "Ermənistan etnik ermənilərı Livandan Dağlıq Qarabağa köçürməklə beynəlxalq hüquq normalarını pozur". Ekspertin fikrincə, Ermənistanın beynəlxalq hüquq normalarına zidd olan belə siyasəti Dağlıq Qarabağ nizamlanması üzrə danışıqlar prosesinə mənfi təsir göstərir: "Danışıqlar prosesi onsuz da getmir, bu sadəcə "danışıqlar prosesi" adlanır. Bakının həqiqi danışıqlar aparmaq üçün mövqeyi varsa, Ermənistan tərəfindən mövcud status-kvonu mümkün qədər uzun müddət saxlamaq istəyi var. Ona görə də danışıqlar prosesi real olaraq yoxdur. İstənilən halda, hansısa əlavə problem danışıqlar yolunda onu yavaşladan daşa çevriləcək".

Məhz bu vəziyyətdə Dağlıq Qarabağ bölgəsinə Livan və Suriyadan ermənilərin, muzdluların köçürülməsi, yerləşdirilməsi və onların fəaliyyəti problemin dinc həllini tam dalana dirəyir. Livandan, yaxud Suriyadan olan adi ermənilərin hər an müharibə ola biləcək Dağlıq Qarabağa gəlməyə razılıq verməsi də inandırıcı deyil. Deməli, Ermənistan Azərbaycanın bu bölgəsinə ASALA kimi terrorçu təşkilatların silahlılarını yerləşdirməklə müharibəyə hazırlaşır. Çünki Ermənistan əhalisi işğalçı ordunun tərkibində Qarabağda xidmət etmək istəmir. Bunların yeri terrorçularla doldurulur. Belə şəraitdə livanlı, suriyalı muzdlular bölgəyə gətirilir. Bu terrorçuların isə bir müddət sonra "peşəkar ordu" kimi təqdim ediləcəyi də istisna edilmir.

Beynəlxalq münasibətlər sistemində gərginliyin artması, ermənilərin yenidən ASALA-nı dirçəldərək, Azərbaycan və Türkiyəyə qarşı terror hücumları keçirməsi isə istənilən an reallaşa bilər. Burada xatırladaq ki, Azərbaycan bu barədə beynəlxalq təşkilatlara və Minsk Qrupunun həmsədrlərinə müraciət etsə də, Ermənistan heç bir çağırışları və beynəlxalq hüququ nəzərə almır. Həm də həmsədrlər lazımı addımlar atmır. Belə olan halda Azərbaycanın Ermənistanla beynəlxalq hüquq dilində danışması üçün şans qalmır. Əvəzində Ermənistanla güc dilində danışılması və ciddi zərbələr vurulması ön plana keçir. Ermənistanın məskunlaşdırma siyasətinin qarşısı artıq qəti şəkildə alınmalıdır. Çünki ermənilər Dağlıq Qarabağda qanunsuz hərbi birləşmələr, terrorçu qruplar yaradır, formalaşdırır. Eləcə də bu gün nəzarətsiz qalan Dağlıq Qarabağ və ona bitişik 7 rayonda ermənilər tərəfindən qanunsuz silahlar toplanıb. Yeni terrorçuların silah sarıdan da problemi olmayacaq. Eləcə də Azərbaycanın işğal altında olan əraziləri bu gün faktiki olaraq terrorçu qrupların hazırlanması üçün bazadır. Orada hazırlanan terrorçular isə bütün dünyaya, o cümlədən Avropanın ayrı-ayrı ölkələrinə yayılırlar. Sözügedən problemin aradan qaldırılmasında bu mənada Avropa da Azərbaycana hərtərfli yardım etməlidir. Çünki Qarabağ münaqişəsinin ədalətli şəkildə həll olunması Avropaya qarşı da reallaşacaq təhlükəni aradan qaldıra bilər.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**